# Azərbaycan cəlbedici turizm məkanları arasında ilk onluğa daxil olub

❒ ***Böyük Britaniya Bel Çantalı Səyahətçilər Cəmiyyəti (British Backpacker Society) Azərbaycanı səhayət üçün perspektivli ölkələr arasında ilk onluğa daxil edib.***

Cəmiyyətin açıqlamasında Azərbaycan macərapərəstlər üçün maraqlı ölkə kimi təqdim olunub. Cəmiyyət Azərbaycanın şimalında dağ kəndlərinə səhayət etməyi təklif edib.

Bundan başqa, ölkənin Xəzər dənizinin sahilində yerləşməsi qeyd olunub və şimalda “həyəcanverici dağlar”la, cənubda “heyrətamiz palçıq vulkanları” ilə, qərbdə “maraqlı mədəniyyətlərlə”, şərqdə isə “Qafqazın ən gözəl şəhəri” Bakı ilə əhatə olunduğu vurğulanıb.

Azərbaycanın cəlbediciliyinin əsasında Avropa və Asiya mədəniyyətlərinin kəsişməsində yerləşməsi göstərilib.

Reytinqdə, həmçinin Efiopiya, Rusiya, Bosniya, Qazaxıstan, Özbəkistan yer alıb.

***“Xalq qəzeti”***




Xalq qəzeti.- 2019.- 26 dekabr.- S.9.